# SAYIQLIĞA ÇAĞIRIŞ, yaxud ÖLÜLƏR DİRİLMƏDİ

**Azərbaycan Dövlət Akademik Dram Teatrının yeni "Ölülər" tamaşasında səhnə qaranlıqdan başlayır. Səhnənin müəyyən məkanlarında bir-birinin ardınca üç-üç, iki-iki dayanan adamlar işıqlanır. Onlar çox mühüm, inanılmaz bir xəbəri müzakirə edirlər. Həmyerliləri Məşədi Orucun qardaşı bir vaxtlar xaricdə vəfat etmiş, indi isə dirilib vətənə qayıdır. Məşədilərin, hacıların müzakirə etdiyi bu xəbərə inamları zəifdi. Bu inam gücünü Məşədi Orucun qardaşından gələn məktub xeyli artırır. Şəhər əhalisi bir-birinə deyir. Adamlar inanmaya-inanmaya inanmağa başlayırlar. Ölüdiriltdən Şeyxin onların şəhərinə gəlməsi xəbəri isə hadisələri daha da kəskinləşdirir.**

Daima kefli olan İsgəndərdən başqa hamı möcüzə həyəcanı ilə yaşayır. Bu rolun ifaçısı Anar Heybətov hay-küyə səbəb olan xəbəri eşidənə qədər yaşadığı mühitə qarşı elə ciddi bir mübarizə aparmır. Zahirən gözəl və mədəni görünən İsgəndər-A.Heybətovun gözə çarpan etirazlarından biri müəllimin dərs dediyi otağa it çağırması ilə kifayətlənir. İsgəndər yalnız Şeyx Nəsrullahın şəhərə gəlişi ilə fəallaşır, ona qarşı çıxmaqla yaşadığı aləmin də ifşasına başlayır. A.Heybətov İsgəndər rolunda insanlara hörmətlə yanaşan, onları ayıltmaq məqsədi ilə davranan, xaricdə təhsil almış, sonralar əyyaşlığa qapılmış, lakin humanist, ədalətli bir ziyalıdı. O, hətta Şeyx Nəsrullah ilə dialoqunda belə zahiri hörmət dairəsindən kənara çıxmır.

Tamaşanın quruluşçu rejissoru Azər Paşa Zəfər oğlu bu ölüdiriltmə xəbərindən başını itirmiş adamların kor şəklində ora-bura qaçmalarını xarakterik, plastik hərəkətlərlə düzgün qura bilmişdir. Çaşmış insanlar nəsə aydınlaşdırmaq məqsədi ilə səhnədə o qədər sinxron, dəqiq hərəkətlər edirlər ki, bir musiqini ifa edən ansambla bənzəyirlər.

Tamaşada Hacı Bəxşəli-Sabir Məmmədov, Hacı Kərim-Mirzə Ağabəyli, Hacı Kazım-Əjdər Sultanov, Mirbağır Ağa-Elxan Quliyev bu ansamblın plastik anlarında son dərəcə inandırıcı təsir bağışlayırlar. Onların bir-birindən həm xarakter, həm danışıq, həm də hadisələrə münasibət fərqləri o qədər müxtəlifdir ki, tamaşanın bədii təsirini xeyli yüksəldir.

Azər Paşa Zəfər oğlunun tamaşaya verdiyi tərtibatda isə iki məkan var. Hacı Həsən Ağanın evi və qəbiristanlıq. Bunun da çox dərin bir mənası var. Yaşam dünyası ilə axirət dünyasının daima bir-birinin yanında olması. Bir çox iştirakçıların səhnənin altından peyda olması və sonradan oradan yox olması isə hadisələrə bir başqa rəng verir, sehrləndirir, əbədiliklə bir an yaşamaların vəhdətini tamamlayır. Lakin rejissor əsərin üçüncü pərdəsindəki sonda İsgəndərin ölülərə söylədiyi monoloqu pərdənin əvvəlinə keçirmişdir. Əgər İsgəndər Şeyx Nəsrullahın fırıldağına qətiyyən inanmırdısa, şəkilin əvvəlində gəlib ölülərin ailələrində onlardan sonra baş verən hadisələri anlatmağa ehtiyac duyulmur. İsgəndər maraq üçün qəbiristanlığa gələ bilər və Şeyx tərəfindən adamları ustalıqla necə aldatdığının şahidi olandan sonra dediyimiz monoloqun əvvəldə yox, şəkilin axırında söylənilməsi daha yerinə düşərdi. Tamaşanın sonuncu pərdəsində də bir qədər aydın olmayan məqamlar var. Burda İsgəndərin ifşaedici monoloqu əsasən siğə üçün gətirilmiş qızların Şeyx tərəfindən atılıb, qaçmasıdı. Təəssüf ki, səhnədə bu atılmış, bədbəxt edilmiş qızlar demək olar görünmür. Pyesdəki bəzi mətnlərin yerinin dəyişməsi rejissor üçün mühüm bir məqsəd kəsb edir. Məsələ dini, mövhumatı tənqid etmək deyil, sayıqlığa çağırışdı.

Tamaşa əsərin səhnəyə qoyulmasının 100 illiyinə, rejissor Tofik Kazımovun hazırladığı quruluşun 50 və nəhayət teatrın aparıcı sənətkarı Nurəddin Mehdixanlının 60 illiyinə həsr edilmişdi.

Sənətşünaslıq doktoru İ.Rəhimlinin tədqiqatına əsasən 1916-cı ildə "Ölülər" əsərinin ilk tamaşasında Şeyx Nəsrullah rolunu Əliqulu Qəmqusar ifa etmişdir. 1966-cı ildə isə bu rol Məlik Dadaşova tapşırılmışdı. İlk ifaçı barəsində məlumatımız kifayət dərəcədə yetərgin olmadığına görə xüsusən M.Dadaşovu Nəsrullah rolunda yaxşı xatırlayıram. Görkəmli rejissor T.Kazımov şərqə müxtəlif çirkin məqsədlərlə gələn xarici emisarların tipik nümayəndələrindən birini Şeyx Nəsrullah obrazında canlandıra bilmişdir. Bu Şeyx bütün əməllərinə baxmayaraq zahirən çox mədəni, səliqəli, təmiz, inandırıcı olmağa çalışan bir adam idi. Şeyx Nəsrullahı bugünkü yeni tamaşada isə Nurəddin Mehdixanlı ifa edir. Onun möhtəşəm ifasında isə tamamilə təhlükəli bir obraz yaranmışdı. Bu Şeyx Nəsrullah daha qorxuludur. O, hazırda şərq aləmində geniş yayılmış hansısa bir terrorçu qrup başçısını xatırladır. Onun nəinki geyimində, bəzən yavaşdan, bəzən bağıraraq səslənən nitqi dinləyicilərdə qorxu xofu yaradır. Şeyx Nəsrullah ona inanan adamları qorxu ilə şaşdırır və beləliklə məqsədlərinə asanlıqla nail olur. Şeyx Nəsrullah-N.Mehdixanlı çox ayıqdı, hadisələri dəqiq izləyir, məqsədinə çatmaq üçün müxtəlif vəziyyətlərdən məharətlə istifadə edir. Səhnə ifasının şərtinə uyğun olaraq Şeyx Nəsrullah bəzən tamaşaçılara müraciət edir, çox səmimi şəkildə öz biabırçı niyyətlərinə bəraət qazandırmağa çalışır.



Köməkçi Şeyx Əhməd - Aslan Şirinov ansamblda gözə çarpacaq dərəcədə ifası ilə seçilir. Şeyx Nəsrullah onun vasitəsi ilə ölülərin dirilməsi yalanına inanan adamlarla istədikləri kimi rəftar edirlər.

İsgəndər-A.Heybətov tamaşanın sonunda Şeyx Nəsrullahın fırıldaqçı olduğunu dəfələrlə söyləməyinə baxmayaraq ona fikir verməyənlərdən təngə gəlib sonuncu monoloqunu söyləyir. Monoloq "indi söz mənimdir" cümləsi ilə başlayır. İsgəndər ifşaedici monoloqunu söylədikcə ona qulaq asan obrazların hamısı məkanı tərk edir. Onlar həqiqətən xəcalət çəkdiklərindən, biabır olduqlarından utanaraq, başlarını aşağı salıb yavaş-yavaş səhnəni tərk edirlər. Açıq-aydın görünən biabırçılığın təkrar tənqidini eşitmək istəmirlər. İsgəndər səhnədə tək qalır və boğuq səslə səhnədə "Ölülər, ölülər" deyərək əzab çəkir. Bu boğulmuş qışqırıqda bir fəryad və sayıqlığa çağırış vardı.

Tamaşada rolların əksəriyyətinin ikinci ifaçısı vardır. Mən Hacı Həsən rolunda Kazım Abdullayevi gördüm. Səhnənin arxa hissəsindən bir əli göyə açılmış, o biri əli ilə sanki yerə dayanmaq formasında ölüdiriltmə xəbərindən son dərəcə şaşqın bir formada K.Abdullayev mövlanə tərzində fırlana-fırlana səhnəyə daxil olur. Böyük oğlu İsgəndəri özünün dediyi kimi bir ətək pul verib xaricdə oxudan, kiçik oğlu Cəlala müəllim tutub evində dərs verdirən bu Hacı daxilən maarifçidi, lakin onun dünyasını şəhər əhlinin qəribəliyi, ağına-bozuna baxmadan hər cür xəbərə inanan tanışları Hacı Həsən ağanı çaşdırmışdı. Hacı Həsən - K.Abdullayev hər şeyi başa düşə-düşə yalan selinə düşüb son dərəcə bağışlanılmaz qəbahətlər edir. Hacı Həsən ağanın rəhmətə getmiş böyük qızının əri Mir Bağır Ağa -Elxan Quliyev sonralar onun doqquz yaşlı qızı Nazlını almaq istəyir. Əslində yalnız öz hissi tələblərini, hissi arzularını həyata keçirmək istəyən Mir Bağır ağa hər cür təmizlikdən, seyidlikdən çox-çox uzaqdadır. Tamaşada qeyd etdiyimiz kimi Hacı Baxşəli, Hacı Kərim, Hacı Kazım hacılar silsiləsindən olsalar da hər birisinin bir-birindən kəskin ayrılan xarakterləri vardır. Hacı Baxşəli bütün işləri tələsik və birbaşa görəndi. Haci Kərim tərs, hövsələsiz, inadkardı. Hacı Kazım baxmayaraq ki, hamıyla hökmlə danışır, sonra qorxaq olduğu üzə çıxır.

Məşədi Oruc obrazını 1966-cı ildəki quruluşda İsmayıl Osmanlı oynayırdı. Yeni quruluşda bu rol Rafik Əzimova həvalə olunub. Qardaşının dirilməsi və onu diriltdən Şeyxin səfəri barədə aldığı məktubu Məşədi Oruc-R.Əzimov həmi sevinclə, həm də ağlaya-ağlaya oxuyur. Başqa Məşədilər, Hacılar dünyasını dəyişmiş əzizlərinin yenidən dirilməsinə razı olmadığı bir vaxtda Məşədi Oruc öz qardaşının dirilib gəlməsinə həqiqətən çox sevinir.

Tamaşada Mirzə Hüseyn müəllimi Hacı İsmayılov ifa edir. Həm qorxaq, həm də sanki qətiyyətli olmağa çalışan müəllim əslində məhduddur. Cəlala oxutduğu mətni yalnız avazla öyrətməyə çalışır. Müəllim - H.İsmayılov oxunan sözlərin mənasını deyəsən heç özü də başa düşmür, amma çox məğrur və qürurlu davranır.

Tamaşada qadın rolları azdı. Hacı Həsən ağanın övrəti Kəbleyi Fatma xanımı Laləzar Mustafayeva ifa edir. Bu xanım varlı, bəzəkli geyinməsinə baxmayaraq ağıl, düşüncə sahəsində son dərəcə geridə qalmışdır. İfaçı Fatma xanımın dialoqlar zamanı sözləri gec dərk etməsini, dönüb tez-tez geri qayıtmasını, soruşmasını, vəziyyətdən başını itirməsini çox maraqla nümayiş etdirir.

Nazlı rolunda isə Mədəniyyət və İncəsənət Universitetinin tələbəsi Xədicə Novruzlu çıxış edir. Bu gənc ifaçı Nazlını bəzi səhnələrdə hadisələrin mahiyyətini başa düşmədiyini, qardaşı İsgəndərə böyük məhəbbətini səmimi şəkildə çatdıra bilir. X.Novruzlu teatrda əvvəllərdə gedən bir çox tamaşalarda müvəffəqiyyətlə çıxış etmişdir. Nazlı onun sonuncu nailiyyətlərindən biridir.

Bu günə qədər hazırlanan tamaşalarda qəhrəman İsgəndər idi. Son tamaşada isə əsas diqqət Şeyx Nəsrullaha tərəfə çevrilmişdir.

Əvvəllər "Ölülər" dini fanatizmi ifşa etmək üçün qoyulurdu. Yadımdadı ulu öndərimiz Heydər Əliyev "Ölülər" haqqında çox dərin, düzgün fikir söyləmişdi. Bu fikir tamaşanın proqramında da öz əksini tapmışdı. Ulu öndərin sözlərinə görə müəllif bu əsərlə "Dinin xalqımız üçün nə qədər böyük, mənəvi dəyər olduğunu sübut etməyə çalışmışdır. Eyni zamanda o, dini təhrif edənləri, dindən istifadə edib fırıldaqla məşğul olanları ifşa edib, tənqid atəşinə tutubdur".

Tamaşada Nəsrullah və İsgəndər obrazlarının şərhi də məhz ulu öndərin bu mənalı fikirindən faydalanmışdır. Şeyx Nəsrullah ölü diriltməyə yox, daxili ehtiraslarını söndürmək üçün gəlmişdir. Tamaşada rejissorun verdiyi səhnə hərəkətlərində, aktyorun ifasında, onun bu əsas məqsədi çox aydın görünür. İsgəndər yalnız yanandı. Bu yanğısını da yalnız şərabla söndürməyə çalışandır.

**Azər Paşa Zəfər oğlu müasirliklə səsləşən bir sıra anlara da müvəffəqiyyətlə nail olmuşdur. Məsələn, əsərin üçüncü pərdəsində ölülərin diriltməyə gələn adamların əllərində qəbiristanlığa libasla daxil olması çox maraqlıdı. Azər Paşa Zəfər oğlu özünün tərtibat verdiyi rəssam işi ilə və dahi Qara Qarayevin musiqisi ilə "Ölülər"in yeni yozumunda tamaşada öz məqsədinə nail olmuşdur. Əsərdə ölülər dirilmədə də "Ölülər" müasir tələblər səviyyəsində tamaşaya yenidən hazırlanmışdır.**

**AĞAKİŞİ KAZIMOV,**
**xalq artisti, professor**